IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 23. Issue 02. Sentabr, 2026

46-CI İL "QƏRARLAR"I VƏ SƏMƏD VURĞUN "ÜİK(B)P MK-NIN ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT HAQQINDA QƏRARLARI"NDAN 80 İL, S.VURĞUNUN ANADAN OLMASINDAN 120 İL KEÇİR

Təyyar Salamoğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya elmləri doktoru, professor
https://orcid.org/0000-0001-8364-1580
tayyarsalamoğlu@gmail.com
https://doi.org/10.5281/zenodo.23088913

Xülasə

Problemin qoyuluşu ədəbi prosesin hərəkətinin obyektiv mənzərəsini yaratmaqla S.Vurğun yaradıcılığını tarixilik prinsipi ilə qiymətləndirməyi nəzərdə tutur. Bu məqsədi həyata keçirmək üçün sovet dövrü Azərbaycan ədəbiyyatının keçən əsrin 20-ci illərindən 50-ci illərin ortalarına qədər keçdiyi yolun yarımmərhələləri fərqləndirilir. 1946-cı ildən 50-ci illərin ortalarına qədər sonuncu yarımmərhələ kimi götürülür. Yarımmərhələnin səciyyəvi əlamətlərini ümumiləşdirmək üçün ÜİK(b)P MK-nın ədəbiyyat və incəsənət haqqındakı 46-cı il "Qərarları" təhlil müstəvisinə çıxarılır və əks məntiqlə oxunur. 46-cı il "Qərarları"nda deyilənlərdən çıxış edib 46-cı ilə qədər və 46-cı ildən sonra bütövlükdə ümumittifaq, eyni zamanda, milli ədəbi prosesdə cərəyan edən hadisələr, estetik hərəkatın tipologiyası araşdırılır.S.Vurğunun 46-cı ilin ilk qərarından əvvəl və sonra yazılmış məqalələri əsasında bu qərarların milli ədəbi prosesə təsir imkanları tədqiq edilir. 46-cı il qərarlarından sonra ədəbi prosesdə baş verən hadisələrlə əvvəlki yarımmərhələdəki proseslər müqayisə müstəvisinə gətirilir.

Nəticə olaraq göstərilir ki, həm ümumittifaq, həm də milli ədəbi prosesdə 46-cı ilə qədər cərəyan edən hadisələrdə sosrealizmə müqavimət hərəkatı kifayət qədər güclü olmuş, ortaya qoyulan bədii əsərlərin mühüm bir qismində sosrealizm çevrəsindən kənara çıxılmışdır. Məqalədə bu kənaraçıxmanın S.Vurğun yaradıcılığı üçün səciyyəvi cəhətləri üzərində də dayanılır.

Açar sözlər: tarixilik, ədəbiyyat, incəsənət, sosialist realizmi, mərhələ, yarımmərhələ

THE 1946 "RESOLUTIONS" AND SAMAD VURGUN

80 YEARS HAVE PASSED SINCE THE "RESOLUTIONS ON LITERATURE AND ART" OF THE CC OF THE AUCP(B), AND 120 YEARS SINCE THE BIRTH OF S. VURGUN

Abstract

The problem is framed around evaluating Samad Vurgun's creative work based on the principle of historicism, through the construction of an objective picture of the literary process. For this purpose, the trajectory of Soviet-era Azerbaijani literature from the 1920s to the mid-1950s is divided into distinct sub-periods, with the period from 1946 to the mid-1950s identified

as the final sub-period.In order to generalize the characteristic features of this sub-period, the 1946 "Resolutions" of the Central Committee of the All-Union Communist Party (Bolsheviks) on literature and art are placed at the center of analysis and read against the grain. Taking the pronouncements of the 1946 "Resolutions" as a point of departure, the study examines the developments that unfolded before and after 1946 in both the all-Union literary process and the national literary process, while also examining the typology of the aesthetic movement.Drawing on S. Vurgun's articles written before and after the first resolution of 1946, the study investigates the extent to which these resolutions were able to shape the national literary process. The developments that occurred in the literary process post-1946 resolutions are then analyzed in comparison with the processes characteristic of the preceding sub-period.As a result, it is demonstrated that, before 1946, the events unfolding both in the all-Union and in the national literary processes reflected a significant current of resistance to socialist realism, and that a substantial part of the literary works produced during this period moved beyond the boundaries of socialist realism. The article also focuses on the distinctive features of this departure as manifested in S. Vurgun's creative work.

Keywords: historicism, literature, art, socialist realism, period, sub-period

1946-YIL "QARORLAR"I VA SAMAD VURG'UN

BUTUNITTIFOQ K(B)P MKNING "ADABIYOT VA SAN'AT TO'G'RISIDA"GI QARORLARIDAN 80 YIL, S. VURG'UN TAVALLUDIDAN 120 YIL O'TDI

Annotatsiya

Tadqiqotning muammosi adabiy jarayonning obektiv manzarasini yaratish orqali Samad Vurg‘un ijodini tarixiylik prinsipi asosida baholash atrofida shakllangan. Shu maqsadda, sovet davri Ozarbayjon adabiyotining 1920-yillardan 1950-yillarning o‘rtalarigacha bo‘lgan rivojlanish yo‘li muayyan kichik davrlarga (bosqichlarga) ajratilgan bo‘lib, 1946-yildan 1950-yillarning o‘rtalarigacha bo‘lgan muddat yakuniy bosqich sifatida belgilangan. Ushbu kichik davrning xarakterli xususiyatlarini umumlashtirish uchun Butunittifoq K(b)P MKning adabiyot va san’at to‘g‘risidagi 1946-yilgi “Qarorlar”i tahlil markaziga olib chiqilgan va “teskari mantiq” (dekonstruktiv tahlil) metodi orqali o‘rganilgan. Tadqiqotda 1946-yilgi “Qarorlar”da ilgari surilgan g‘oyalardan kelib chiqib, ushbu yildan oldin va keyin ham butunittifoq, ham milliy adabiy jarayonda sodir bo‘lgan voqea-hodisalar, shuningdek, estetik harakatning tipologiyasi tadqiq etilgan. S. Vurg‘unning 1946-yilgi birinchi qarordan oldin va keyin yozilgan maqolalariga tayangan holda, mazkur qarorlarning milliy adabiy jarayonga ta’sir ko‘rsatish darajasi o‘rganilgan. 1946-yilgi qarorlardan keyingi adabiy jarayonda yuz bergan hodisalar undan oldingi bosqichga xos bo‘lgan jarayonlar bilan qiyosiy ravishda tahlil qilingan. Tadqiqot natijasida ma’lum bo‘ldiki, 1946-yilgacha ham ittifoq, ham milliy adabiy jarayondagi voqeliklarda sotsialistik realizm metodiga qarshi sezilarli darajada qarshilik harakati mavjud bo‘lgan va ushbu davrda yaratilgan badiiy asarlarning salmoqli qismi sotsrealizm chegaralaridan tashqariga chiqqan. Maqolada mazkur chekinishning S. Vurg‘un ijodida namoyon bo‘lgan o‘ziga xos xususiyatlariga ham alohida e’tibor qaratilgan.

Kalit so‘zlar: tarixiylik, adabiyot, san’at, sotsialistik realizm, davr, kichik davr (kichik bosqich)

Giriş (Introduction): ÜİK(b)P MK-nın ədəbiyyat və incəsənət haqqındakı məlum qərarlarının 80-ci, xalq şairi Səməd Vurğunun anadan olmasının isə 120-ci ildönümü ərəfəsində problemə yenidən baxılması aktual xarakter daşıyır. Tədqiqatın məqsədi sovet dövrü Azərbaycan ədəbi prosesinin obyektiv mənzərəsini yaratmaq və S.Vurğun yaradıcılığını tarixilik prinsipi kontekstində yenidən qiymətləndirməkdir. Bu məqsədlə XX əsr Azərbaycan ədəbiyyatının 20-ci illərindən 50-ci illərinin ortalarına qədərki dövrü yarımmərhələlərə bölünmüş, 1946-cı ildən Stalin repressiyalarının yumşalmasına qədərki dövr isə sonuncu yarımmərhələ kimi qəbul edilmişdir.

Metodlar (Methods)

Yarımmərhələnin səciyyəvi əlamətlərini ümumiləşdirmək üçün ÜİK(b)P MK-nın 1946-cı il “Qərarları” təhlil müstəvisinə çıxarılmış və “əks məntiq” (dekonstruktiv təhlil) metodu ilə oxunmuşdur. Tədqiqatda 1946-cı ilə qədər və sonrakı ümumittifaq və milli ədəbi prosesin tipologiyası araşdırılmış, S.Vurğunun qərarlardan əvvəl və sonra qələmə aldığı məqalələri əsasında bu qərarların milli ədəbiyyata təsir imkanları müqayisəli-tarixi metodla öyrənilmişdir.

Nəticə (Results)

Araşdırma nəticəsində məlum olmuşdur ki, həm ümumittifaq, həm də milli ədəbi mühitdə 1946-cı ilə qədər sosialist realizmi metoduna qarşı gizli və ya aşkar müqavimət hərəkatı kifayət qədər güclü olmuşdur. Dövrün bədii məhsullarının mühüm bir qismində sosrealizmin qəti çərçivələrindən kənara çıxma halları müşahidə edilir. Məqalədə sözügedən estetik kənaraçıxma və sənətkar azadlığı meyllərinin S.Vurğun yaradıcılığındakı spesifik təzahür formaları ətraflı şəkildə təhlil olunur.

Discussion

Səməd Vurğun çox ağır bir zamanda yaşamışdır. Həm də son əsrlərin heç bir dövrü və mərhələsi ilə müqayisə olunmayacaq qədər ağır bir zamanda. Odur ki, şairin yaradıcılığına obyektiv qiymət vermək üçün zamanın ədəbi-mədəni hərəkatını ictimai-siyasi proseslərin cərəyanı kontekstində qiymətləndirmək zəruri amil kimi çıxış edir. Bu o deməkdir ki, şairin irsi tarixilik kontekstində öyrənilməlidir. Bu nöqteyi-nəzərdən siyasi mühitin ədəbi-mədəni düşüncəyə təsirinin incəliklərini təsəvvür etmək lazımdır. Fikrimizcə, ədəbiyyatşünaslığımızın sovet dövrü ədəbiyyatını mərhələlərə ayırması, hər mərhələyə məxsus estetik xüsusiyyətləri, bu xüsusiyyətlərin ictimai-siyasi proseslərlə şərtlənən cəhətlərini araşdırmaq təşəbbüslərini tarixiliyin inkişaf tendensiyalarının sənətkarların yaradıcılığına təsirinin obyektiv mənzərəsini aşkarlamaq meyli kimi qiymətləndirmək lazımdır. Müstəqillik dövrü ədəbiyyatşünaslığında doğru vurğulanır ki, “XX əsrdə, xüsusən sovet dönəmində yaşamış sənətkarların hər birinin əsərləri və xidmətləri dərindən, obyektiv tarixi meyar və prinsiplərlə öyrənilməli, layiqincə dəyərləndirilməlidir. Tarixin, zamanın tələblərini, sənətkarın yaşadığı dövrün siyasi mənzərəsini, onun boya-başa catdığı sosial mühitin təsirlərini nəzərə almadan bir şairi sovet quruluşunu,

hakim partiyanı tərənnüm etdiyinə, digərini məşhur siyasi xadimə poema yazdığına görə ittihamlamaq səhvdir, neobolşevik düşüncədir" (3,243).

Məlum həqiqətdir ki, ədəbiyyatşünaslığımızda sovet dövrü Azərbaycan ədəbiyyatı əsasən iki tarixi mərhələyə bölünərək öyrənilir. Keçən əsrin 50-ci illərinin sonu (bəzi hallarda 50-ci illərin ortaları) ədəbiyyatımızın yeni mərhələyə - yeni keyfiyyət mərhələsinə keçidinin başlanğıcı sayılır. Ümumiyyətlə götürəndə 50-ci illərin ortalarına qədər birinci mərhələ, 50-ci illərin sonu və 60-80-ci illər ikinci mərhələ kimi qəbul edilir və araşdırılır. S.Vurğun yaradıcılığı birinci mərhələyə daxil olur. Birinci mərhələdə ədəbi-tarixi prosesin hərəkətinə sosrealizmin estetik çərçivəsi, ikinci mərhələdə isə sosrealizmin estetik prinsiplərinin sökülüb dağılması, yeni sənət prinsiplərinin ortaya çıxması kontekstində yanaşmalar ədəbiyyatşünaslığın əsas elmi-nəzəri, müəyyən mənada, həm də metodoloji meyarına çevrilir.

Bununla belə, düşünürük ki, sözü gedən I mərhələnin ədəbiyyatını bir neçə yarımmərhələyə ayırmağa ehtiyac var. Fikrimizcə, birinci yarımmərhələyə 1928-ci ilə qədərki, ikinci yarımmərhələyə 1928-31/32-ci illəri əhatə edən zaman kəsikləri daxildir. Üçüncü yarımmərhələ 1932-ci ildən 1946-cı ilə qədərki zamanı, dördüncü yarımmərhələ isə 1946-cı ildən 50-ci illərin ortalarına qədərki zaman kəsiyini əhatə edir.

Birinci yarımmərhələdə ədəbiyyatda aparıcı istiqaməti milli və dünya ədəbiyyatından gələn ənənələrin davamı təşkil edir.

İkinci yarımmərhələ proletkultçuluğun hakim olduğu mərhələdir. Ədəbiyyatı bütövlükdə proletar platformasına keçirmək və ona tam bir şəkildə təbliği funksiya aşılamaq rejimin əsas tələbi kimi meydana çıxır. Tənqid istər yaşlı nəslin, istərsə də proletar ədəbiyyatı nümayəndələrinin yaradıcılığını dialektik materializm metodu prizmasından, marksist-leninçi platformadan dəyərləndirir.

Üçüncü yarımmərhələdə ədəbiyyatın ancaq proletariat qüvvələri tərəfindən yaranacağı, ədəbi ənənədən imtina kimi məsələlərə tənqidi baxış formalaşır. Ədəbiyyatın proletar platforması kimi məhdud bir dairədən çıxıb, bütövlükdə şura-sovet ədəbiyyatı platformasına keçidinə şərait yaradır. "Dialektik materializm"dən fərqli olaraq "sosialist realizmi"nin nəzəri postulatlarında millilik forma məsələsi şəklində olsa da yer alır. Şura-sovet ədəbiyyatı "məzmunca sosialist, formaca milli ədəbiyyat" kimi səciyyələndirilir. Bu cəhət estetik düşüncənin manevr imkanlarını genişləndirir. Ədəbiyyat proletariatın- ancaq bir sinfin inhisarında qalmaq kimi məhdud dairədən çıxır, bütün sinif və sosial təbəqələr ədəbi prosesin hərəkətində iştirak imkanı qazanır.

Bütün bu ümumiləşdirdiyimiz cəhətlər 1946-cı ilə qədər davam edir. ÜİK (b)P MK-nın ədəbiyyat və incəsənət haqqında 1946-1948-ci illərdə verilmiş dörd qərarı ("Zvezda" və "Leninqrad" jurnalları haqqında 14 avqust 1946-cı il, "Dram teatrlarının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında 26 avqust 1946-cı il, "Böyük həyat" kinofilmi haqqında 4 sentyabr 1946-cı il, B.Muradelinin "Böyük dostluq" operası haqqında 10 fevral 1948-ci il qərarları. Bax:5) rejimin ədəbiyyat siyasətini büsbütün sərtləşdirir və onu tamamilə ideoloji müstəviyə keçirməyi qəti tələb kimi qoyur. İ.V.Stalinin 1932-ci ildəki nitqində (Bax:5,49-55) və Ümumittifaq yazıçılarının 1934-cü ildə keçirilən qurultayında sənətkarlara verilən nisbi "nəfəs genliyi" (repressiyanın tüğyanı şəraitində olsa belə) onların əlindən alınır. Opponentlərimizə qəribə gələ bilər ki, repressiya illərini də içinə alan 1932/34-1945-ci illəri sənətkarlara verilən "nəfəs genliyi", 1946-56-cı illəri isə bu "nəfəs genliyi"nin onların əlindən alınması, ədəbiyyatda siyasiləşmənin, məfkurəvi- ideoloji amillərin sonuncu yarımmərhələdə daha əsaslı şəkildə yer

tutması şəklində təsəvvür edirik.. Məsələ burasındadır ki, hansının ədəbi inkişafın xeyrinə olması nöqteyi-nəzərindən hər iki zaman kəsiyində cərəyan edən hadisələri qiymətləndirməli olsaq, deməliyik ki, 1932/34-1945-ci illərdə ədəbi prosesin hərəkətində proletkultçuluq illəri ilə müqayisədə kifayət qədər irəliləyiş, 1946-1956-cı illərdə isə özündən əvvəlki zaman kəsiyi ilə müqayisədə əsaslı şəkildə geriləmə nəzəri cəlb edir. Və əslində proletkultçuluq başqa bir formada qüvvəyə minir. O mənada ki, ədəbiyyat bütövlükdə siyasi, açıq siyasi-ideoloji təbliğat vasitəsinə çevrilir. Fikrimizcə, 1946-48-ci il qərarları ədəbiyyatı tamamilə siyasi rejimin nəzarəti altına almağın əməli ifadəsi, pilyuralizmin son nöqtəsinə qədər aradan qaldırılmasına hesablanır.

Əlbəttə, dövrün tənqidi bu qərarları ədəbi inkişafa təkan verən amil, ədəbiyyata dövlət, partiya qayğısı kimi qiymətləndirmişdir.

"Azərbaycan sovet ədəbiyyatı tarixi" kitabında oxuyuruq: "ÜİK (b)P MK-nın "Zvezda" və "Leninqrad" jurnalları haqqında" 1946-cı il 14 avqust tarixli qərarı müharibədən sonrakı dövrdə Azərbaycan ədəbiyyatının inkişafına böyük bir təkan verdiyi kimi, ədəbi-tənqidi fikrin istiqamətini də müəyyən etdi" (2,10). Birinci qərarın verilməsindən dərhal sonra "Leninqrad" və "Zvezda" məcmuələri haqqında Jdanov yoldaşın məruzəsi münasibətilə çağırılmış plenumda nitq"ində S.Vurğun deyirdi: "Zveda" və "Leninqrad" məcmuələri haqqında UİK (b)P Mərkəzi Komitəsinin 14 avqust tarixli qərarı bütün sovet ədəbiyyatı üçün həyati əhəmiyyətə malikdir" (7,381). S.Vurğun etiraf edirdi ki, bu qərarda "Sovet ədəbiyyatının qarşısında qoyulan vəzifələr" baxımından ədəbiyyatımız "çox geri qalır".

Məsələ burasındadır ku, dörd qərarı çıxış nöqtəsi kimi alsaq və əks məntiqlə düşünsək, çox ciddi qənaətlərə gələ bilərik.

"Zvezda" və "Leninqrad" jurnalları Leninqradda nəşr edilən ədəbi orqanlar idi. Bu isə o deməkdir ki, nəşr olunduğu illərin (ən azı 40-cı illərin əvvəllərinin) ədəbi prosesinin birbaşa təmsilçiləri sırasında idilər. Əslində bu jurnallar ədəbi prosesin mənzərəsini əks etdirirdi. Qərarda etiraf olunur ki, "Zvezda" jurnalında son zamanlar, sovet yazıçılarının çox əhəmiyyətli və müvəffəqiyytli əsərləri ilə bir sırada çoxlu ideyasız, ideoloji cəhətdən zərərli əsərlər də çıxmışdır" (6,3). Qərarda o da deyilirdi ki, "MK qeyd edir ki, "Leninqrad" jurnalı xüsusilə pis çıxarılır. Bu jurnal Zoşşenkonun bayağı və böhtançı çıxışlarına, Axmatovanın boş və siyasətdən uşaq şeirlərinə öz səhifələrində daim yer vermişdir" (6,5).

İkinci qərar "dram teatrlarının repertuarını" tənqid edirdi. Tənqid olunan dram əsərləri təkcə tarixi mövzularda yazılmış əsərlər deyildi. Müasir mövzularda yazılmış bir sıra əsərlər də ciddi tənqidin hədəfi olurdu.

Üçüncü və dördüncü qərarlarda tənqid edilən "Böyük həyat" kino-filmi və Muradelinin "Böyük dostluq" operası isə 40-cı illərdə incəsənətin müxtəlif sahələrində cərəyan edən proseslər haqqında təsəvvür yaradır.

"Böyük həyat" kino-filmi, Muradelinin "Dostluq" operasına qərarda verilən qiyməti mahiyyət müstəvisinə çıxarıb analitik təhlildən keçirsək, indiki halda son dərəcə maraqlı görünən nəticə əldə etmiş olarıq. Düşünmək qaçılmazdır ki, və əslində həqiqət budur ki, "Böyük həyat" kino-filmi də, "Böyük dostluq" operası da rejimin siyasətinə, ideoloji kursuna əks mövqedən yazılmışdır. Qərarda "Böyük həyat"ın "ideya-siyasi cəhətdən qüsurlu" olmasının xüsusi vurğulanması, "Böyük dostluq" operasının məzmun cəhətdən qüsurlu elan edilməsi, "formalizm" nümunəsi kimi tənqid edilməsi bunu işarələyir. Qərarda işarələnən bəzi məsələlər "Böyük dostluq" və "Böyük həyat" əsərlərinin təsadüfi hal olmadığını, 40-cı illərin ədəbi-mədəni prosesi

üçün səciyyəvi faktlar olduğunu göstərir. MK-nın bu tip əsərlərin meydana çıxmasını "hazırkı sovet musiqisinin yaxşı vəziyyətdə olmaması ilə, sovet bəstəkarları arasında formalizm cərəyanının yayılması"(6,26-27) ilə əlaqələndirməsi, düşünməyə tam əsas verir ki, 40-cı illərdə kino və musiqi və şübhəsiz ki, incəsənətin digər sahələrində də sovet ideologiyasını təbliğ funksiyasını üzərinə götürən əsərlərlə bərabər, əks mövqedən yaranan əsərlər də kifayət qədər səciyyəvi olmuşdur. Birinci qərarda A.Axmatovanın şeirlərinin metod və üslub xüsusiyyətləri ilə bağlı deyilənlər ədəbi-mədəni sahədə sovet ədəbiyyatı və incəsənətinə əks bir qütbün də fəaliyyət mövcudluğunu, ədəbi-mədəni prosesdə qütbləşmənin 40-cı illər üçün səciyyəviliyini ortaya qoyur.

Bu dörd qərarda çoxlu sayda yazıçının, şairin, dramaturqun, incəsənətin müxtəlif sahələrinin nümayəndələrinin adları çəkilir, hər birinə məxsus əsərlər kəskin tənqidin hədəfi olur: Zoşşenko, A.Axmatova, Vodonyanov, Laptiov, Tur qardaşları, Rıbak, Savçenko, Qladkov, Raxmanov, Poqodin, Skrib, Hacı Şükürov, Qasımov, Tacıbayev, Burunqulov və b. Məlum olur ki, Zoşşenko rus ədəbi mühitində, ən azı Leninqrad mühitində nüfuzlu ədəbi sima olmuş, "Zvezda" jurnalının ədəbiyyat tribunasını əlində saxlamışdır. Qərarda onun əsərləri "sovet ədəbiyyatına yabançı" ruhuna görə tənqid hədəfi seçilir.

Qərarda oxuyuruq: "Zlşşenkonun çap edilmiş son hekayələrindən "Meymunun sərgüzəşti" ("Zvezda", № 5-6, 1946-cı il) sovet məişətinə və sovet adamlarına bayağı həcvdir"(6,3).

A.Axmatovanın yaradıcılığına aşağıdakı kimi qiymət verilir: "Axmatova xalqımıza yabançı olan, boş, ideyasız poeziyanın tipik nümayəndəsidir"(6,4).

Bu qərarların Azərbaycan ədəbi mühitində doğurduğu rezonansın, qərarlardan irəli gələrək milli ədəbi prosesdə cərəyan edən hadisələrin, meydana çıxan əsərlərin qiymətləndirilməsi baxımından S.Vurğunun iki məqaləsi diqqətimizi xüsusi cəlb edir: "Azərbaycan ədəbiyyatının vəzifələri" (1946), "Leninqrad" və "Zvezda" məcmuələri haqqında Jdanov yoldaşın məruzəsi münasibəti ilə çağırılmış plenumda nitq" (1946) (Bax:7,381-386). Məqalələrdə 1940-cı illərin milli ədəbi prosesinin, demək olar ki, bütün iştirakçılarının adları çəkilir və onların bu illərdə meydana çıxan əsərlərinə müxtəlif istiqamətlərdən kəskin tənqidi münasibət bildirilir. M.S.Ordubadi, A.Şaiq, M.Hüseyn və S.Vurğunun özü tarixi mövzulara ifrat yer verməkdə, S.Rəhman, S.Rəhimov, Mir Cəlal, İ.Əfəndiyev cəmiyyət həyatına tənqidi münasibətdə, S.Rüstəm, Ə.Əlibəyli, Z.Cabbarzadə, M.Rahim "hüzn və kədəri tərənnüm"də, tənqidçilər M.Rəfili, M.Arif, C.Cəfərov və b. "qabaqcıl marksizm-leninizm nəzəriyyəsi ilə silahlanmamaq"da ittiham olunur.

1946-1948-ci il qərarlarında deyilənlər və bu qərarların Azərbaycan ədəbiyyatında doğurduğu rezonansların nəticəsi kimi meydana çıxan yazılar 1932/34-1945-ci illərdə ədəbi prosesin hansı istiqamətdə cərəyan etməsi, mərhələnin estetik hadisələrinin mahiyyətini təsəvvür etməyə imkan verir. Burada bir şərt vardır. Biz əks məntiqlə düşünməyi bacarmalıyıq. Müasir zamanda tamamilə fərqli bir siyasi sistemdə - müstəqillik dövründə, müstəqil dövlət və millət kimi mövcudluğumuzdan, bundan irəli gələn düşüncə azadlığından yararlanaraq milli mənafeyimizə və dövlətçiliyimizə uyğun baxış sistemi ortaya qoymalıyıq. 1946-1948-ci il qərarlarının vasitəsi ilə özündən əvvəlki zaman kəsiyində cərəyan edən "ədəbi hadisələr"in mahiyyətini təsəvvür etmək imkanımız var. Bunun üçün deyilənləri analitik təhlildən, ayıq elmi (həm də siyasi) düşüncədən keçirməliyik.

Mərkəzi Komitənin bütövlükdə 40-cı illərin birinci yarısının ədəbi prosesində cərəyan edən hadisələrdən narazılığı nəyin ifadəsidir? İlk növbədə, sözü gedən mərhələdə ədəbi-mədəni hərəkatın totalitar rejim düşüncəsinə tabe olmamasının. Bəli, Zoşşenkonun, A.Axmatovanın və onlarla digər sənətkarların əsərlərində sovet cəmiyyətinə kəskin tənqidi münasibət ədəbiyyatda sovet məfkurəsi ilə razılaşmayanların kifayət qədər olduğunun, cəmiyyət hadisələrini ideoloji-sinfi, məfkurəvi mövqedən yox, həyat həqiqətinə uyğun şəkildə ifadə etmək məramının göstəricisidir. Əgər Zoşşenko, A.Axmatova 90-cı illərdə nüfuzlu sənətkarlar kimi yüksəlmişdisə (ədəbi orqanların onların əsərlərinə ardıcıl yer verməsi bunu sübut edir), bu sözü gedən zaman kəsiyində ədəbi cameədə azad düşüncənin totalitar düşüncəyə müqavimət hərəkatının göstəricisi kimi mənalanmalıdır.

Birinci qərarda A.Axmatovanın "siyasətdən uşaq şeirləri"ndən və onlara "Leninqrad" jurnalında ardıcıl yer verilməsindən, eyni halın Zoşşenkonun "bayağı və böhtançı çıxışları" ilə bağlı baş verməsindən söhbət gedirsə, bütün bu hallar 1932/34-45-ci illərdə siyasi rejim şəraitində bədii düşüncədəki müxtəlif istiqamətliliyi, hətta sovet ədəbiyyat siyasətinə əks mövqeyin əsaslı yer tutmasını işarələyir. A.Axmatovanın "siyasətdən uzaq şeirləri" həmin illərdə ədəbi prosesdə fərqli estetik istiqamətlərin – "izm"lərin fəalyyətindən xəbər verir.

"Zvezda" və "Leninqrad" jurnallarında siyasətdən uzaq şeirlərə, dram teatrlarında müasir mövzulardan çox tarixi mövzulara, dünya ədəbiyyatı nümunələrinə yer verilməsi tənqid edilirdisə, "dramaturqların zəmanəmizin əsas məsələlərindən kənarda durduqları" xüsusi şəkildə vurğulanırdısa və s. bu, 1932/34-1945-ci illərdəki ədəbi zaman kəsiyinin spesifikliyini işarələyir, özündən əvvəlki və sonrakı zaman kəsiyindən köklü şəkildə fərqlənmənin göstəricisidir.

1946-48-ci il qərarlarının 1932/34-1945-ci illərin ədəbi prosesini işarələyən ən qısa xarakteristikasını verdikdən sonra, həmin qərarların 46-cı ildən sonra ədəbi prosesə necə təsir edəcəyini təsəvvür etmək çətin deyil.

Məsələ burasındadır ki, 46-48-ci il qərarları ədəbi-estetik hərəkatın istiqamətini dəyişməyə qərarlı olan siyasi gücün ifadəsi idi. Bu "güc" Zoşşenkolara, A.Axmatovalara "yox" deyirdi. Zoşşenko və A.Axmatovaların sosialist realizmi ədəbi hərəkatı dövründə müstəqil estetik düşüncəni metaforalaşdırdığını nəzərə alsaq, qərarlardan sonra ədəbi hərəkatda bu cür müstəqil düşünmək və sovet rejimi haqqında həqiqəti bədii həqiqətə çevirmək imkanlarının aradan çıxacağını (çıxarılacağını) düşünmək qaçılmazdır.

"Zvezda" və "Leninqrad" jurnallarının fəaliyyəti ilə bağlı tənqidi mühakimələri analitik təhlildən keçirsək, onların öz fəaliyyətləri dövründə nisbi də olsa, müstəqil fəaliyyət göstərdiklərini, ədəbi hərəkatın müxtəlif istiqamətlərinə (məfkurəvi, ideoloji istiqamətli əsərlərlə bərabər, estetizmin müxtəlif istiqamətlərinə) öz səhifələrində yer verdklərini düşünmək olar. "Leninqrad" jurnalının bağlanması, "Zvezda"nın ideya-siyasi istiqaməti ilə bağlı görülən qəti tədbirlər o mənaya gəlir ki, daha 46-cı ildən sonra ədəbi orqanlarda heç bir müstəqil siyasət yeritməyə imkan olmayacayıq. Deməli, açıq şəkildə elan etməsələr də, əslində müxtəlif "izm"lərdə yazıb yaradan sənətkarlar əvvəllər mətbuatda özlərinə yer edə bilirdilərsə, bundan sonra bu mümkün olmayacaq,

Əgər 46-cı ildən qabaq dram teatrlarının fəaliyyətində müəyyən bir sərbəstlik var idisə (bunun sübutu kimi müasir mövzulu əsərlərlə bərabər, teatrın repertuarında tarixi mövzulara və dünya dramaturqlarının əsərlərinə əsaslı yer verilməsini göstərə bilərik), bundan sonra bu mümkün olmayacaq. Çünki qərarda teatrın repertuarında tarixi mövzularda yazılmış əsərlərə yer

vermək "tarixi mövzularda yazılmış pyeslərin tamaşaya qoyulmasına həddindən artıq uymaq" elan edilir. Bu, birmənalı şəkildə o deməkdir ki, 46-cı ildən sonra teatr öz repertuarına tarixi mövzulu əsərləri salmaq imkanını itirəcək. Çünki siyasi rejim tarixi mövzulu əsərlərin səhnədə oynanılmasına qətiyyən maraqlı deyil, bu mövzuya "padşahlar, xanlar, əyanların idealizə edilməsi" prizmasından yanaşır və onu rədd edir. Teatrların qarşısında müasir mövzulu əsərlərə, cəmiyyət həyatını bəzək-düzəkli, ideoloji prizmadan əks etdirən əsərlərə yer vermək tələbi qoyulur. Həm də qərarda "dram teatrlarının repertuarı" anlayışı metaforik məzmun daşıyır. Bütövlükdə isə ən müxtəlif janrlarda tarixi mövzununun rədd edilməsi kimi başa düşülməlidir.

Demək, 46-cı ildən sonra ədəbi hərəkatda müasir həyat məsələləri önə çıxmalıydı, tarixi mövzu rədd edilməliydi və edilirdi. Yazılmış və yaxud yazılmamış qanun belə idi ki, yerlərdə - bütün respublikaların ədəbi mühitində "Qərarlar"dan irəli gələn vəzifələr yerinə yetirilməli və göstərilən qüsurlara adekvat faktlar aşkarlanmalı, onlara birmənalı tənqidi münasibət bildirilməliydi. Bu müzakirələrdə mütləq "Qərarlar"da deyilən hallar tapılmalıydı, pislənməliydi və "Qərar"ların strateji əhəmiyyəti xüsusi vurğulanmalıydı. Ədəbi prosesin sonrakı hərəkəti "Qərarlar"dan irəli gələn vəzifələrə tabe tutulmalıydı. 1946-cı ildə və sonrakı illərdə ideoloji təşkilatların, tənqidin məsələlərə münasibətinə və dəyərləndirməsinə diqqət yetirsək, bunu aydın görə bilərik. İndiki halda, bizim üçün maraqlı olan budur ki, "Qərarlar"da deyilənlər milli ədəbi mühitdə 1932/34-1945-ci illərdə cərəyan edən hadisələri də, sonrakı yarımmərhələdə də cərəyan edəcək hadisələri təsəvvür etməyə imkan verir. Bu isə mahiyyətcə, həm də hər iki yarımmərhələ arasındakı tipoloji fərqlərin aşkarlanması deməkdir. Bunun üçün ədəbi müzakirələrdə səslənən fikirləri nəzərdən keçirməyə əsaslı ehtiyac var. S.Vurğunun qərardan dərhal sonra qələmə alınan iki yazısı bu mənada bizə çox zəngin material təqdim edir.

"Azərbaycan ədəbiyyatının vəzifələri" adlı yazısında oxuyuruq: "Amma bir sıra müvəffəqiyyətlərə baxmayaraq, biz indi görürük ki, ədəbiyyatımızın mühüm nöqsanları da vardır. Bizim yazıçılardan bir çoxu, o cümlədən mən özüm də müasirliyin zərərinə olaraq, tarixi süjetlərə həddindən artıq meyl etmişik" (7,377). Kiçik həcmli bu yazı "Literaturnaya qazeta"da çap olunmuşdur (12 oktyabr 1946-cı il nömrəsində). Yazını ədəbiyyatımız haqqında milli sənətkarın yazıçı tənqidi kimi qiymətləndirmək sadəlövhlük olardı.

Yazının Mərkəzi Komitənin 46-cı ildəki ilk qərarı münasibətilə yazıldığına və Mərkəz qarşısında hesabat xarakteri daşıdığına şübhə etmirik. Yazının "Qərar"dan dərhal sonra (iki ay sonra) yazılması və "Literaturnaya qazeta"da çap olunması bunu işarələyir. O zaman S.Vurğun SSRİ miqyasında tanınmış və qəbul edilmiş Azərbaycan şairi idi. Bir növ Azərbaycan şeirinin bayraqdarı funksiyası daşıyırdı. Yazı "daşıdığı funksiya" ilə bağlı onun Mərkəzə hesabatı idi, "Qərar"dan irəli gələn vəzifələr barədə özünün və təmsil etdiyi milli ədəbi mühitin "Qərar"a verdiyi dəstək, ondan irəli gələn vəzifələri özlərinin fəaliyyət-yaradıcılıq məramnamələrinə çevirəcəkləri ilə bağlı götürülən "öhdəlik" idi. Əsl həqiqətdə S.Vurğun "tarixi süjetlərə həddən artıq meyl etməsi"ni, eyni zamanda, bunun "müasirliyin zərərinə" olduğunu dilə gətirəndə özü-özünü inkar edirdi, özü-özünü inkara məcbur qalırdı. Bu məcburiyyət qarşısında təmsil etdiyi ədəbi mühiti yanlış bir yola istiqamətləndirliyini də dərk edirdi.

Bu danılmaz bir fakt idi ki, S.Vurğun 46-cı ildən əvvəlki onillikdə tarixi mövzuya, mənsub olduğu xalqın keçmişinə müasirləri arasında ən çox müraciət edən sənətkar idi. Həm də təkcə özü müraciət etmirdi, bu ədəbi istiqaməti müasirləri arasında təbliğ edirdi, onları buna təşviq edirdi. 1932/34-45-ci illərdə tarixi mövzu, xalqının tarixi keçmişini əks etdirmək S.Vurğunun

sənət konsepsiyasının ən mühüm tərkib hissəsi olmuşdur. Zamanın ədəbiyyat siyasətində proletkultçuluq düşüncəsindən uzaqlaşmaq halı şairə xalqının tarixinə, ümumiyyətlə keçmişə münasibətini köklü şəkildə dəyişməyə imkan vermiş, proletkultçuluq mərhələsindən sosialist realizmi – şura ədəbiyyatı mərhələsinə keçiddə sənət konsepsiyasını milli tarixi varlığı inikasa istiqamətləndirməyə imkan vermişdi.

"Azərbaycan ədəbiyyatının vəzifələri" məqaləsindən (mahiyyətcə isə 46-cı ilin ilk qərarından) cəmi bir il qabaq "Ümumittifaq Yazıçılar İttifaqının X plenumunun yekunları və Azərbaycan ədəbiyyatının gələcək vəzifələri" haqqında məruzəsində ədəbiyyatda tarixi mövzunun, xalqın özünəməxsus keçmişini ifadə zərurətini milliliyi şərtləndirən vacib amillər sırasında görür, müasirlərini bu cəhəti nəzərə almağa çağırırdı. S.Vurğun deyirdi : "Hər insan, hər şeydən əvvəl, özünəməxsus tradisiyalar və milli xüsusiyyətlərə sahib olan konkret bir xalqın övladıdır...Müasir ədəbiyyat xalq idrakından, xalq mənəviyyatından danışdığı zaman, onun mənəvi keçmişinə böyük bir hörmət və məhəbbətlə yanaşmalı, tariximizin həyat və mübarizə səhifələrini ilham və ürəklə vərəqləməlidir. Tarixə "olub keçmiş şeylər", "çağırılmış bayatılar" kimi baxanlar idrak və zövqü məhdud insanlardır (7,345-346). Məsələnin bu şəkildə qoyuluşunu, hələ məruzənin Ümumittifaq Yazıçıları İttifaqının X plenumuun yekunlarına həsr olunduğunu nəzərə alsaq, tarixə bu cür estetik baxışı ancaq S.Vurğunun estetik görüşü kimi izah etmək mahiyyəti tam ifadə edə bilmir. Tarixə və xalqın keçmişinə onun milli özünəməxsusluğunu, milli kimliyini təyin aktı kimi yanaşmaq 1932/34-1945-ci illər üçün Ümumittifaq ədəbiyyatında mövcud olan istiqamət kimi izah oluna bilər. Bilirik ki, sovet ədəbiyyatının ilk yarımmərhələsində, daha doğrusu, proletkultçuluq zamanında tarixə inkarçı, xalqların milli keçmişinə inkarçı baxış səciyyəvi idi. Bu mərhələdə tənqid yeni yaranan ədəbiyyatı necə olursa olsun, tarixi düşüncə müstəvisindən çıxarıb müasir mövzulara istiqamətləndirməyə çalışırdı. Sovet rejiminin ideoloqlarının, o cümlədən M.Qorkinin keçmişi "zəhərli katorqa həyatı" kimi təsvir etməyin zəruriliyi, bunu estetik qanunauyğunluğa çevirmək haqqında tövsiyyələrindən güc alırdı. Eyni zamanda proletkultçu düşüncənin həm ədəbi, həm də ümumiyyətlə, ənənəyə inkarçı münasibətinin ifadəsi idi. Ancaq sonrakı mərhələdə tənqid tarixiliyə baxış sistemini dəyişmişdi. Daha doğrusu, dialektik materializm metodundan sosialist realizminə keçid tənqidin keçmişə baxışını daha çox həqiqət müstəvisində ifadəyə imkan verir, tarixi mövzularda yazılmış əsərləri müasirliyin inikas formalarından biri kimi dəyərləndirməyə şərait yaradırdı.

S.Vurğun xalqın tarixi keçmişinin bədii ifadəsi üçün sənətkarlarımızın diqqətini xalq ədəbiyyatının zəngin ənənələrinə yönəldir. Folklorumuzda- əfsanə və nağıllarımızda yaşayan tariximizin canlandırılmasını milli sənətkar üçün prioritet vəzifələrdən sayır. Təbii ki, bu tendensiya, eyni zamanda, sənətkar yaradıcılığının xəlqi xarakterini, sənətkarın vətəndaş mövqeyini müəyyənləşdirən əsas amillərdən sayılır: "Xalq əfsanələri, nağılları sahəsində belə, biz əsrimizin qabaqcıl ruhu ilə səslənə bilən əsərlər yaratmalıyıq. Xalq əfsanələrinə soyuq bir nəzərlə baxan yazıçılar unudurlar ki, bütün əsanələr xalq dühasının məhsuludur. Hər əfsanədə xalqın real həyatı, şüur və zövqləri, onun gələcəyə olan inam və arzuları əks olunmuşdur ki, onların bir çoxu indi də arzu olaraq, həm də yüksəliş arzusu olaraq qalır... Bunu yalnız bacarmaq lazımdır" (7,346).

S.Vurğun bunu bacarmışdı. O, xalq əfsanə və nağıl süjetlərində bütöv bir poemalar silsiləsi yaratmışdı: "Qız qayası", "Aslan qajacı", "Bulaq əfsanəsi", "Ayın əfsanəsi", "Hürmüz və Əhrimən" və s. Tarixi mövzularda da xeyli şeir, poema və dram əsərləri yazmışdır: "Zərdüştün

xülyaları", "Şairin ölümü", "Natəvan" şeirləri, "Dar ağacı" poeması, "Vaqif", "Fərhad və Şirin" dramları. Fərqinə varmaq lazım gəlir ki, şair bu əsərlərin hamısını 32/34-45-ci illər arasında yazmışdı. Bu, həmin illərin ədəbi prosesinin hərəkəti üçün ən səciyyəvi bir hal sayıla bilər. S.Vurğunun müasirləri olan sənətkraların yaradıcılığında tarixi və xalq ədəbiyyatı mövzularına müraciətin tarixini araşdırsaq, onların böyük çoxluğunun sözü gedən mərhələdə yazıldığını müşahidə etmək mümkündür. Bunun əsas səbəbi, M.Hüseynin dəqiq ifadə etdiyi kimi "xalqımızın şüurunda həqiqi bir intibah dövrünün başlanması" (4,414-415) sayıla bilər. Bu fikri bir qədər başqa cür təfsir və iqtibas etsək, deyə bilərik ki, sözü gedən mərhələdə Azərbaycan ədəbiyyatında "xalqımızın şüurunda həqiqi bir intibah" yaratmaq milli sənətkarlarımız üçün önə çıxarılan məqsədlərdən biri olmuşdur. Ancaq bir cəhəti də xüsusi vurğulamağa ehtiyac var ki, bu istiqamət yaranmış tarixi-siyasi şəraitdən bacarıqla istifadə etməyin nəticəsi kimi meydana çıxmışdır.

S.Vurğunun "Azərbaycan ədəbiyyatının vəzifələri" məqaləsində səslənən bir fikrə diqqət yetirək: "Ən qocaman Azərbaycan yazıçıları – bir çox tarixi romanların müəllifi olan M.S.Ordubadi, ondan az məşhur olmayan yazıçı Abdulla Şaiq müasirlik barəsində bircə dənə də olsun az-çox əhəmiyyətli əsər yazmamışlar. Mehdi Hüseynin beş pyesindən ən müvəffəqiyyətli olanları Azərbaycan xalqının tarixi keçmişi haqqında yazılmış "Nizami", "Cavanşir" və "Şamil" əsərləridir" (7,377). Bunu kim deyir, kim tarixi mövzulu əsərləri tənqid kursu seçir? – Səməd Vurğun. Hansı Səməd Vurğun? O S.Vurğun ki, cəmi bir il qabaq sənətkarlarımızı tarixi mövzularda əsərlər yazmağa təşviq edirdi. O S.Vurğun ki, cəmi bir il qabaq "tarixə olub keçmiş şeylər", "çağırılmış bayatılar" kimi baxanlar idrak və zövqü məhdud insanlardır" – deyirdi. Bu təzadlı mövqeyin səbəbi nə idi? S.Vurğunu "idrak və zövqü məhdud insan" roluna girməyə nə məcbur etmişdi? Cavab birmənalıdır: Zamanın dəyişən siyasəti. 1946-48-ci il "Qərarlar"ı siyasi rejimin dəyişən, sərtləşən siyasətinin ifadəsi idi. Rejim hesab edirdi ki, onun ədəbiyyat siyasətində ciddi boşluqlar olmuşdur və bu boşluqlar mütləq aradan qaldırılmalıdır. Əlbəttə, rejim başçıları və ideoloqları günahı birbaşa öz üzərlərinə götürmək fikrində deyildilər. Onlar baş verən hadisələri partiyanın ədəbiyyat siyasətinə dair ayrı-ayrı orqanlar və sənətkarlar səviyyəsində buraxılmış səhvlərin, xüsusən məsuliyyətsizliyin nəticəsi hesab edirdilər və "Qərarlar"da bu halın birmənalı və qətiyyətlə aradan qaldırılmasından söhbət gedirdi. Rejim bu "boşluq"u heç cür həzm edə bilmir, buna görə də əsəbi bir kurs götürür (bu əsəbilik "Qərarlar"ın hər birinin mətnində özünü göstərir): "Necə ola bilmişdir ki, öz qabaqcıl inqilabi ənənələri ilə şöhrət tapan, həmişə qabaqcıl ideya və qabaqcıl mədəniyyətin mənbəyi olan Leninqradda, bu qəhrəman şəhərdə, sovet ədəbiyyatına zidd olan ideyasızlıq və siyasətdən uzaq olmaq fikirlərinin jurnallara keçirilə bilməsinə yol vermişlər" (6,5).

Fikrimizcə, "Qərarlar" sovet məkanında estetik düşüncəyə qarşı yönəlmiş "ölüm hökmü" idi. Əslində bu "hökm"ün tarixi proletkultçuluq illərindən başlayır. Proletar mədəniyyəti haqqında Lenin siyasətindən başlayır. Ancaq Stalinin haqqında danışdığımız "nitqi" bu "hökm"ün yerinə yetirilməsinə imkan vermədi. Bizim qəti qənaətimizə görə, 1932/34-1945-ci illər sovet ədəbiyyatının ilk mərhələsinə "bəraət aktı" almış yarımmərhələ kimi daxil olur. Lakin məsələ burasındadır ki, proletkultçuluq illərinin ədəbi-mədəni siyasətindən imtina olunanda da, estetik düşüncəyə müəyyən mənada "bəraət aktı" veriləndə də, siyasi rejim özünün ədəbiyyat siyasətinin baş xəttindən, onu ideoloji təbliğat vasitəsinə çevirmək məqsədindən, "ədəbi-mədəni hərəkat siyasətdən uzaq ola bilməz" tendensiyasından əl çəkməmişdi. Görünən budur ki, heç

çəkmək fikri də yox idi. “Boşluq”lar doldurulmalı, estetik düşüncə bilavasitə “siyasətə” xidmət etməli idi. “Qərarlar” bu baş məqsədi reallaşdırmaq məramından doğulmuşdu.

Hakimiyyət ədəbiyyatın siyasiləşdirilməsində, ona təbliği funksiya verilməsində ən böyük maneələrdən biri kimi tarixi mövzuların, xalqların folklorda hifz olunan yaddaşının estetik düşüncəyə gətirilməsinə qarşı müharibə elan etdi, hətta “müttəfiq və muxtar respublikalarda teatr repertuarının son dərəcə məhdud olduğunu və burada dramaturqların uzaq keçmişə aid mövzulara uyduqlarını” nəzərə alıb, bu işi cavabdeh təşkilatlara tapşırdı və bunun üzərində ciddi nəzarət mexanizmi qərarlaşdırdı.

S.Vurğunun “Qərarlar”dan sonra yazılmış yuxarıda haqqında danışdığımız hər iki məruzəsində tarixi mövzuya inkarçı baxışı buradan qidalanırdı. Birmənalı şəkildə dkmək olar ki, “Qərarlar”dan sonra – yəni 46-cı ildən başlayaraq ədəbiyyatımız “müasir mövzular”ı özünün aparıcı xəttinə çevirir, tarixi mövzuya müraciət halları qat-qat azalır, olanda da bu, tarixiliyin müasirliyinin ifadəsi kimi yox, ifrat müasirləşdirmə tendensiyası ilə meydana çıxırdı. 1946-cı ildən 50-ci illərin ortalarına qədər bu tendensiya davam edir və yarımmərhələnin “estetika”sının səciyyəvi əlaməti kimi çıxış edir.

S.Vurğunun 1946-cı ildə yazılmış yuxarıda adını çəkdiyimiz yazılarında- çıxışlarında M.Hüseynin “Şöhrət” və “İntizar” dramları, S.Rəhimovun “Xalauşağı”, “Şərbətalı”, “Qüdrətov” hekayələri, “Mehman” povesti, M.İbrahimovun “Məhəbbət”, R.Rzanın “Vəfa”, S.Rəhmanın “Xoşbəxtlər”, “Aşnalar” pyesləri, Mir Cəlalın “Açıq kitab” romanı, “Mirzə Xəyal” pyesi, M.Rahimin “Şairin ölümü”, “Ay qız” şeirləri, S.Rüstəmin son zamanlarda yazdığı bəzi qəzəlləri tənqid hədəfi seçilir. Burada adı çəkilən və çəkilməyən bir çox əsərlər haqqında da 46-cı ildən sonra ədəbi tənqid kəskin tənqidi fikir formalaşdırmağa çalışır.

Nə üçün? Çünki bu əsərlərin hamısı cəmiyyətdə baş verən hadisələrə tənqidi münasibət ruhunda yazılmışdı. Bu əsərlərin heç biri tarixi mövzuda deyildi, müasir həyat hadisələrini əks etdirirdi. Ancaq bu əsərlərdə cəmiyyətdə baş verənlər təsdiq pafosu ilə yox, tənqid pafosu ilə əks olunurdu. “Qərarlar”da deyilənləri xatırlayaq. Birinci qərarda Zoşşenkonun əsərləri nə üçün tənqid hədəfi seçilir və antisovet ruhunda yazılmış əsərlər kimi qələmə verilirdi? Hakim ideologiyaya görə, “Zoşşenkonun çap edilmiş son hekayələrindən “Meymunun sərgüzəşti” (“Zvezda, № 5-6, 1946-cı il) sovet məişətinə və sovet adamlarına bayağı həcvdir. Zoşşenko sovet qaydalarına və sovet adamlarına böhtan deyir, onları kobud, az mədəniyyətli, sarsaq, meşşan zövqlü və meşşan xasiyyətli qələmə verir. Zoşşenko tərəfindən həqiqi həyatımızın qəsdən xuliqancasına təsviri antisovet hücumlarla doludur” (6,3). İkinci qərarda Vadopyanov, Laptiov, Tur qardaşları, Rıbak, Savçenko, Qladkov, Raxmanov, Paqodinin və b. qələmindən çıxan əsərlərin adları çəkilir və deyilirdi: “Bu pyeslərdə bir qayda olaraq sovet adamları eybəcər karikutara şəklində, ibtidai düşüncəli və az mədəniyyətli, meşşan zövqlü və xasiyyətli adamlar kimi təsvir edilir, mənfi şəxslər isə daha bariz xasiyyətli, güclü, iradəli və məharətli göstərilir” (6,10).

Bu sitatlarda deyilənləri yeni metodoloji kontekstdə oxuyub dəyrələndirsək, “Qərarlar”da sovet cəmiyyətinin həqiqi üzünü, iç üzünü açan sənətkarlardan və onların əsərlərindən söhbət getdiyini görərik. Bütöv bir sənətkar təbəqəsinin sosialist realizmi metoduna aid edilən tələblərə - hadisələri inqilabi inkişafda və təsdiq pafosu ilə təsivr etmək, qiymətləndirmək tələblərinə əməl etmədiyi qənaətinə gəlmək mümkündür. Adları çəkilən sənətkarların sovet cəmiyyətində baş verənləri həyat həqiqəti müstəvisində qələmə aldıqlarını düşünmək olar. Düşünmək olar ki,

sənətkarlar həyatda gördüklərini qələmə alarkən, onu bədii həqiqətə çevirərkən təhrif yolunu tutmamış, gerçəkliyi bütün mürəkkəbliyi, dərinliyi və kökləri ilə təsvir etmişlər. Sovet ədəbiyyatında tənqid pafosuna yer yox idimi? Var idi.

Sosialist realizmi özündən əvvəlki realizm üçün əsas olan tənqid pafosunu qəbul edirdi, ancaq müasir dillə desək, əsaslı redaktə ilə. Sosialist realizmi hadisələrin həyatda necə cərəyan etməsindən asılı olmayaraq təsdiq pafosunu mövzunun bədii həllində önə keçirməyi, tənqid pafosunu isə onun kölgəsində - fon kimi verməyi estetik prinsip kimi təqdim edirdi. Tənqid yazırdı ki, "A.A.Jdanov "Zvezda" və "Leninqrad" jurnalları haqqındakı məruzəsində aydın bir şəkildə göstərmişdir ki, sovet yazıçısı həyatımızın yeni keyfiyyətlərini göstərməklə nöqsanları tənqid etməyi uyuşdurmalıdır" (1,224). Bu reseptdə həyat həqiqətini öz üzü ilə, olduğu kimi göstərməyə heç bir yer yoxdur. Hakim ideologiya tələb edirdi ki, nə olur olsun, həyatda hadisələr necə cərəyan edir etsin, sovet həyat tərzi daim inkişaf edən, insan rifahının daim yüksəldiyi bir cəmiyyət kimi təsvir edilməlidir. Tənqid pafosu bədii mətnə bu yüksəliş fonunda daxil olmalı, obrazlar isə sürətli islah və inkişaf prosesində təsvir edilməlidir.

Zoşşenkolar, Axmatovalar, Rıbaklar, Tur qardaşları və "Qərarlar"da adı çəkilən digər sənətkarlar sosialist realizminin bu tələblərindən büsbütün imtina etmişdilər. Bu sənətkarlar cəmiyyyətdə gördüklərini, müşahidə etdiklərini olduğu kimi göstərməyi, həyat həqiqətinə sədaqəti estetik norma olaraq qəbul etməyi həqiqi sənət yolu kimi görürdülər. 1924-cü ildə Pilnyakın dediklərini iqtibas etsək, deyə bilərik ki, onlar kommunist deyildilər, kommunist olmaq və kommunistcəsinə də yazmaq istəmirdilər. Düşünmək olar ki, rejimin ilk illərində onun formalaşdırmaq və ideoloji təbliğatın vasitəsi kimi ortalığa çıxarmaq istədiyi ədəbiyyata müqavimət göstərən sənət yolu (Preverzevlərin, Voronskilərin, Pilnyakların müdafiə etdiyi sənət yolu) proletkultçuluq dövründə bir qədər səngisə də, arxaya çəkilsə də, ədəbiyyatın yeni mərhələyə keçidindən sonra, proletkultçuluğa hökumət səviyyəsində tənqidi münasibət göstəriləndən sonra özünü bərpa edə bilmişdi. Bir növ Preverzevlər, Voronskilər, Pulnyaklar Zoşşenko, A.Axmatova, Tur qardaşları və b. simasında ədəbi prosesin hərəkətində yenidən üzə çıxmağa başlamış, proletkultçuluq düşüncəsinin sosialist realizminə transformasiyasına estetik müqavimət hərəkatı kimi ədəbi səhnədə görünməyə, yer tutmağa başlamışdılar. Qəbul etmək lazımdır ki, yazdıqları əsərlərin "sovet məişətinə və sovet adamlarına bayağı həcv" kimi dəyrələndirilməsi onların həyat həqiqətinə sədaqətindən doğurdu. Onlar yazdıqlarını "ədəbi qanunlar"a tabe tutaraq yazırdılar. Sovet rejiminin ortaya atdığı sosialist realizmi isə "ədəbi qanun" tanımır, özünün estetik prinsiplər kimi formalaşdırdığı cəhətləri "ədəbi qanun" kimi təqdim edirdi. Buna görə düşünürük ki, UİK (b)P MK-nın dörd qərarında tənqidin hədəfinə çevrilən əsərlər sənətkraların dissident ruhunun ifadəsi idi. Maraqlıdır ki, həmin dissident ruhu milli ədəbi prosesdə də özünü göstərirdi. Bəlkə, 1932/34-1945-ci illərdə yazılan və dönə-dönə kəskin tənqidə məruz qalan əsərlərin müəlliflərini dissident adlandırmaq mübahisə doğurar. Çünki 46-cı ildən sonra onların da yolunda bir geriləmə müşahidə edilirdi. Buna baxmayaraq sosialist realizmi üçün müəyyən edilmiş normativlərdən qətiyyətlə kənara çıxmaları, əsərlərində təsdiq pafosundan çox tənqid pafosunu qabartmaları, həyat həqiqətinə sadiq qalmaq meyli milli ədəbi prosesin hərəkətində sosrealizmə müqavimət hərəkatı kimi mənalana bilər.

İstər ümumittifaq, istərsə də milli ədəbi prosesdə ideoloji tələblərdən kənara çıxmaq halları sənətkarlar tərəfindən tam dərk edilmiş estetik hərəkat idi. Onların ədəbi ənənəyə və həyat həqiqətinə sədaqətindən xəbər verirdi. Partiya qərarlarından sonrakı əsərləri daha çox tənqidə

məruz qalan milli sənətkralardan biri olan S.Rəhimovun öz sənət prinsiplərinə sədaqətini ifadə edən aşağıdakı fikrini tənqid qəbul edə bilməzdi: "Biz yazıçılar sosializm əmlakını oğurlayanlara, rüşvətxorlara qarşı mübarizə etməyəkmi? Biz yazıçılar utopik bir xəyala qapılıb ulduzlara qalxaqmı?" (1,224).

Ədəbi mühitə ünvanlanan bu suallarda prinsipial sənətkar mövqeyi, vətəndaşlıq məramı və bütün bunlardan irəli gələn estetik prinsiplər ifadə olunmuşdur. Sənətkarın cəmiyyət həyatında özünü göstərən eybəcərliklərə, qüsurlara tənqidi münasibəti ədəbi ənənədən gəlirdi. Eyni zamanda, sosialist realizminin estetik prinsiplərindən olan "həyatı doğru, dürüst və tarixən konkret" əks etdirmək tələbinə uyğun idi. Sosialist realizminin estetik prinsipləri kimi təqdim olunan bu xüsusiyyətlər ədəbi qanunauyğunluğa söykəndiyi, ədəbi ənənədən gəldiyi üçün sənətkarlar bu cəhətə öz əsərlərində kifayət qədər dəqiqliklə, təbii ki, həm də öz istedadlarının imkanları daxilində əməl edirdilər. Yəni haqqında söhbət açdımız istər milli, istərsə də ümumittifaq sənətkarları "doğru-dürüstlük", "tarixən konkretlik" məsələsində realizmin tarixi estetik prinsiplərini əsas götürürdülər. Bu prinsiplər həyat həqiqətini bədii həqiqətə çevirmək, onun dəqiq inikası və ümumiləşdirilməsini nəzərdə tuturdu. Ancaq sosialist realizmi ədəbi ənənədə mövcud olan bu prinsipləri də olduğu kimi yox, təhriflə qəbul edirdi. Sosialist realizmində "doğru-dürüstlük" və "konkretlik"in meyarı həyat həqiqətinə uyğunluqdan çox, "kommunizm ideyaları"na uyğunluqla (1,220) ölçülürdü. Bu da mahiyyətcə həmin prinsiplərin düzgün tətbiqinə imkan vermirdi. S.Rəhimovun etirazı, ilk növbədə buna qarşı çevrilmişdi. S.Rəhimovun, yaxud istər milli, istərsə də ümumittifaq ədəbi prosesinin tənqidə məruz qalan bütün nümayəndələrinin əməl etməyə çətinlik çəkdiyi, yaxud ümumiyyətlə əməl etmək istəmədiyi sovet ədəbiyyatının yaradıcılıq metodunun ikinci tərkib hissəsini təşkil edən hadisələri "inqilabi inkişafda" göstərmək tələbi idi. Çünki "inqilabi inkişaf" məsələsi realizmə ifrat tendensiyalılıq xüsusiyyəti aşılayır, həyət həqiqətinin obyektiv, doğru-dürüst təsvirini mümkünsüz edirdi.

İstər "Qərarlar"da, istərsə də onların yerlərdə əks-səsası kimi yaranan tənqidi yazılarda ən çox tənqid olunan cəhət müasir həyat məsələlərinin təsvirində sxematizm halları idi. İnqilabi inkişaf tələbi sənətkarı həyatı müşahidədən aldığı təəssüratlarını, təsəvvürlərini inikasa yox, sovet həyatı adı altında uydurma hadisələr təsvir etməyə məcbur edirdi. Zoşşenko, A.Axmatova, Paqodin, yaxud milli sənətkarlar bu cür təsvir üsulunu qəbul etmirdilər. S.Rəhimovun "Bir yazıçılar utopik bir xəyala qapılıb ulduzlara qalxaqmı?" sözləri bu etirazın ifadəsi idi.

"Ulduzlara qalxmaq" istəməyən S.Rəhimov "Xalauşağı", "Şərbətali", "Qüdrətov" hekayələrini, S.Rəhman "Aşnalar", "Xoşbəxtlər", M.İbrahimov "Məhəbbət" pyeslərini yazanda tənqid eynən "Qərarlar"da olduğu kimi onları sxematizmə yol verməkdə, "mənəvi cəhətdən düşgün, əxlaqca pozğun qəhrəmanların" "həddən artıq"lığında ittiham edirdi.

S.Vurğunun yazılarında, M.Arifin, M.Hüseynin məqalələrində adları çəkilən milli sənətkarlara tuşlanan ittihamlar "Qərarlar"da tənqid hədəfi seçilən sənətkarlara tuşlanan ittihamlarla tam şəkildə üst-üstə düşürdü.

Milli ədəbi tənqiddə, plenumlarda səslənən bu fikirlərin mənbəyinin "Qərarlar" olduğunu müəlliflər özləri də etiraf edirdilər. Ədəbi prosesin hərəkətini "Qərarlar"a uyğunlaşdırmaq tələbi qoyulurdu. S.Vurğun "Plenumdakı nitq"ində deyirdi: "Partiya bizi yabançı məfkurəyə qarşı, sovet ədəbiyyatında məfkurəsizlik və bayağılıq əleyhinə amansız mübarizə aparmağa,

ədəbiyyatımızın sıralarını Zoşşenko, Axmatova və bunlara bənzər "yazıçılardan" təmizləməyə çağırır" (7,381).

Düşünülə bilər ki, milli sənətkarların yaradıcılığına tənqidi münasibət ancaq "Qərarlar"dan irəli gələn vəzifə kimi yerinə yetirilir. Bəlkə, milli ədəbi prosesdə sosialist realizminin estetik prinsiplərinə tənqidi yanaşma, həyat hadisələrini həqiqət prizmasından əks etdirmək halları olmamışdır? Konkret olaraq desək, bəlkə, ədəbiyyatımızın sıralarını Zoşşenko, Axmatova və bunlara bənzər "yazıçılardan" təmizləməyə çağırış ancaq MK-nın tələblərinə cavab vermək məcburiyyətindən doğmuşdur? Bəlkə, heç bizim milli Zoşşenkolarımız, Anna Axmatovalarımız, Paqodinlərimiz, Hacı Şükürovlarımız, Tacıbayevlərimiz olmamışdır?

Belə düşünmək, məsələyə üzdən yanaşmaq, milli ədəbi prosesdə cərəyan edən hadisələrin mahiyyətini dərk etməmək olardı. S.Vurğunun, M.Hüseynin sözü gedən mərhələdə tariximizə estetik baxışı "xalqımızın şüurunda həqiqi bir intibah dövrünün başlanması" kimi izah etmələri, bundan dolayı, "tariximizin həyat və mübarizə səhifələrini ilham və ürəklə vərəqmələyə" çağırışları tarixi həqiqətin bədii həqiqətə çevrilməsində milli ədəbi ənənəyə sədaqət hissinin göstəricisidir.

Məsələ, həm də burasındadır ki, milli ədəbi prosesdə cərəyan edən hadisələrin bir çox hallarda sosialist realizminin hüdudlarından kənarda çıxması, onun estetik prinsipləri kimi müəyyənləşən doqmalara əməl edilməməsi tənqidin diqqətini "Qərarlar"dan qabaq da cəlb etmişdir. S.Vurğunun "Azərbaycan ədəbiyyatının gələcək vəzifələri" adlı yazısı bizə bir çox həqiqətləri başa düşməyə kömək edir. Məsələn, bu yazı belə bir fikir təlqin edir ki, 46-48-ci ilin "Qərarlar"ında qoyulan məsələlərin tarixi xeyli qabağa gedir. Məlum olur ki, 1945-ci ildə Ümumittifaq Yazıçıları İttifaqının X plenumu keçirilir. S.Vurğunun bu yazısı ilə bağlı "qeydlər"dən aydın olur ki, X plenumun yekunları və Azərbaycan ədəbiyyatının vəzifələrinə həsr olunmuş Azərbaycan Sovet Yazıçıları İttifaqının da plenumu keçirilmiş, burada S.Vurğun məruzə ilə çıxış etmişdir. (7,422). S.Vurğunun bu məruzəsindən öyrənirik ki, Ümumittifaq plenumunda qoyulan əsas məsələlərdən biri aşağıdakı kimi olmuşdur: "Yeni insan və onun bədii ədəbiyyatda əks olunmağı. Bunu başqa sözlə desək, sovet həqiqəti və qalib gələn sovet ideologiyasının ədəbiyyatımızda bədii ifadə məsələsi" (7,338). Ümumittifaq Yazıçılar İttifaqının X plenumunda edilən dörd məruzənin təfsilatını bilməsək də, S.Vurğunun məruzəsi bəzi ehtimalları irəli sürməyə imkan verir. Məsələn, düşünmək qaçılmaz olur ki, 46-48-ci ildə verilən dörd qərarın ideoloji əsasları X plenumda hazırlanmışdır. Plenum "sovet həqiqəti və qalib gələn sovet ideologiyasının ədəbiyyatımızda (oxu: Ümumittifaq ədəbiyyatında) bədii ifadəsi"ndə tipoloji bölgü aparmış, sovet ideologiyasına zidd fəaliyyət göstərən sənətkarları və yaxud konkret əsərləri meydana çıxarmış, bunun da nəticələri "Qərarlar"da əksini tapmışdır.

Təbii ki, biz S.Vurğunun məruzəsini həmin dörd məruzənin ümumiləşdirilmiş milli variantı kimi qəbul etməliyik. Həmin məruzə də təftiş ruhunda yazılmışdır. Bu məruzədə milli ədəbi proses məhsulları iki prizmadan dəyərləndirilir. Sovet ideologiyası mövqeyindən yazılmış, həqiqəti "sovet həqiqəti" kimi təqdim edən əsərlər təqdir olunmuş, həyat həqiqətinə sədaqət prinsipi ilə yazılmış əsərlər isə müasirlikdən uzaq əsərlər kimi pisləmişdir. Mir Cəlalın "Açıq kitab" romanını, S.Rəhimovun "Şərbətalı", "Qüdrətov", "Üzsüz qonaq", "Su ərizəsi" hekayələrini və digər sənətkarların bu tipli əsərlərini nəzərə tutaraq bu istiqamətdəki sənətkar mövqeyi qəti surətdə tənqid olunmuşdur: "İstər S.Rəhimovun, istərsə də Mir Cəlalın son zamanlarda aludə olduqları "Mənfilər dünyası" hekayə və romanları ilə, yaxud onların "həyatı

tənqid etmək, qamçılamaq" nəzəriyyəsi lə barışmaq olmaz" (7,341). Biz qətiyyən şübhə etmirik ki, bu və bu tipli fikirləri səsləndirərkən o bir sənətkar kimi öz mövqeyini ortaya qoymurdu. Bu barışmazlıq tendensiyası rejimin ədəbiyyat siyasətinin ifadəsi kimi meydana çıxırdı. Rejimin gücü qarşısında geriyə çəkilmə stixiyasının nəticəsi idi.

Bunu deməyə haqqımız var. Çünki milli ədəbi prosesdə estetik düşüncənin "sovet həqiqəti və qalib gələn sovet ideologiyası" ilə barışmazlıq tendensiyasının önündə gedənlərdən biri elə S.Vurğun özü idi.

Nəticə

Tədqiqat prosesində əldə olunan materialların təhlili və sovet dövrü Azərbaycan ədəbi prosesinin obyektiv mənzərəsinin işıqlandırılması aşağıdakı elmi nəticələrə gəlmək imkanı verir:

1. Sosialist realizmi metodu realizmin tarixi prinsipləri olan "doğru-dürüstlük" və "tarixən konkretlik" anlayışlarını ədəbi ənənədən əxz etsə də, onları mahiyyət etibarilə təhrifə məruz qoymuşdur. Bu metodda bədii həqiqətin meyarı həyatın obyektiv inikası ilə deyil, "kommunizm ideyaları"na və hadisələri uydurma bir "inqilabi inkişafda" göstərmək tələbi ilə ölçülmüşdür. Bu isə ədəbiyyatda ifrat tendensiyalılığa və sxematizmə yol açmışdır.

2. Dövrün hakim ideologiyasının sənətkarları sovet həyatı adı altında utopik və uydurma bir dünya təsvir etməyə məcbur etməsinə baxmayaraq, həm ümumittifaq (A.Axmatova, M.Zoşşenko), həm də milli ədəbi mühitdə (S.Rəhimov, S.Rəhman, M.İbrahimov, Mir Cəlal) bu doqmalara qarşı ciddi bir bədii-estetik müqavimət mövcud olmuşdur. Milli yazıçılar həyatın qüsurlarını, mənfi tipləri bədii müstəviyə çıxarmaqla rəsmi çərçivələri aşmağa nail olmuş, buna görə də kəskin ideoloji tənqidlərə tuş gəlmişlər.

3. Araşdırma göstərir ki, 1946-1948-ci illərin məlum partiya qərarları qəfil meydana çıxmamış, onların ideoloji təftiş əsasları hələ 1945-ci ildə keçirilən Ümumittifaq Yazıçılar İttifaqının X plenumunda hazırlanmışdır. Milli ədəbi tənqidin və plenum çıxışlarının ritorikası birbaşa rejim siyasətinin yerlərdəki mexaniki əks-sədası xarakterini daşımışdır.

4. S.Vurğunun bu mərhələdəki fəaliyyətində amansız repressiv rejimin gücü qarşısında geriyə çəkilmək və rəsmi ədəbiyyat siyasətinin ruporu kimi çıxış etmək məcburiyyəti (Mir Cəlal və S.Rəhimovun tənqidi) aydın görünür. Lakin bu ziddiyyətli mənzərənin daxilində S.Vurğun, eyni zamanda, xalqın tarixinə estetik baxışı və milli ənənəyə sədaqəti qorumaqla, "sovet həqiqəti" ilə barışmazlıq meylinin önündə gedən, bədii təfəkkürü ilə sosialist realizminin hüdudlarını aşan ən qüdrətli sənətkarlardan biri kimi təsdiq olunur.

ƏDƏBİYYAT

1. Arif M. Seçilmiş əsərləri. Üç cilddə. I cild. Bakı. Azərbaycan SSR EA nəşriyyatı. 1967.
2. Azərbaycan sovet ədəbiyyatı tarixi. İki cilddə. II cild. Bakı. Azərbaycan SSR EA nəşriyyatı. 1967.
3. Əsgərli Z. XX əsr Azərbaycan ədəbiyyatı: Qiymətləndirmə və perspektivlər/ XX əsr Azərbaycan ədəbiyyatı məsələləri I kitab. Bakı. Elm, 2006.
4. Hüseyn M. Əsərləri. On cilddə. IX cild. Bakı. Yazıçı, 1979.
5. Rzayev Y. Azərbaycan romanı:siyasət və düşüncə. Bakı. Elm, 2010.
6. ÜİK(b)P MK-nın ədəbiyyat və incəsənət haqqında qərarları. Bakı, Azərnəşr,1950.
7. Vurğun S. Əsərləri. Altı cilddə.V cild. Bakı. Elm,1972.